# Azərbaycan, Qadın və İnkişaf Mərkəzi nümayəndə heyətinin Qəbələ qadınları ilə görüşü

İyunun 20-də Azərbaycan Qadın və İnkişaf Mərkəzinin (AQİM) nümayəndə heyəti «Qafqaz» sport oteldə «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması» layihəsi üzrə 100-dən artıq qəbələli qadınla görüş keçirmişdir.

Qeyd edək ki, bu mərkəzin təsisçisi və fəxri prezidenti Azərbaycan Respublikasının ombudsmanı Elmira Süleymanovadır. Mərkəz qeyri-hökumət təşkilatı olaraq 1994-cü ilin iyun ayından fəaliyyətə başlamışdır. Fəaliyyət göstərdiyi dövr ərzində 150-dən çox konfransda, o cümlədən 110-dan çox beynəlxalq konfransda məruzə və çaxışlarla iştirak etmişdir. Məqsədi qadınların davamlı inkişaf proseslərində iştirakını, rolunu gücləndirmək, onların vəziyyətini yaxşılaşdırmaq, lider qadın, gənclər və uşaqlar hazırlamaqdır.

Görüşü giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmış, mərkəzin qonaqlarını iştirakçılar adından və öz adından salamlamışdır. AQİM-in prezidenti Pərvin Məmmədova qəbələli qadınlara mərkəzin yaranma tarixi, məqsəd və vəzifələri, fəaliyyəti, həyata keçirdiyi layihələr, beynəlxalq əlaqələri haqqında məlumat vermiş, reproduktiv sağlamlıq və ailə planlaşdırılması məsələləri ilə əlaqədar söhbət aparmışdır. Sonra görüşün gedişinə mərkəzin vitse-prezidenti Şövkət Xanməmmədova, Zemfira Mehdizadə də qatılmış, tədbir iştirakçılarla aparıcılar arasında gərgin dialoqa çevrilmişdir. Bir neçə saat çəkən canlı sual-cavab və söhbət xoş təəssüratlarla yekunlaşmışdır.




Ətayə Osmanova maraqlı görüş üçün qonaqlara öz minnətdarlığını bildirmişdir.

**Nadir ATAKİŞİYEV,**
**Foto**
**Şöhrət Süleymanovundur.**

# Böyük Vətən Müharibəsinin başlanmasından 72 il ötür

Yetmiş iki il bundan əvvəl faşist Almaniysı müharibə elan etmədən Sovet İttifaqına hücum etdi. Hegemonluq iştahasına düşən Hitler Almaniyası şəhərləri, kəndləri zəbt etməyə başladı, çoxlu qanlar tökdü. Bu xəbər SSRİ vətəndaşlarının həyəcanına və hiddətinə səbəb oldu. 1941-ci il iyunun 22-də başlanan müharibəyə görə faşist qoşunları sovet ordusuna ağır zərbələr vurmalı, SSRİ-ni diz çökdürərək təslim etməli idi. Adolf Hitler strateji-coğrafi mövqeyə malik Azərbaycanla bağlı xüsusi plan da hazırlamışdı. Ancaq Hitlerin planı baş tutmadı, onun arzusu gözündə qaldı. Bütün sovet vətəndaşları kimi, Azərbaycan vətəndaşları da ümumi vətənin müdafiəsinə qalxdı və silaha sarıldı. Arxada qalanlar isə «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» çağrışı ilə əkin-biçin, yaz-tarla işlərinə daha çox yer ayırmışdılar. Ön cəbhəyə övladlarını yollayan qocalar, ana və bacılarımız arxa cəbhədə fədakarlıqla gecə-gündüz çalışırdı—təki müharibə sovet xalqının qələbəsi ilə tez başa çatsın.

Müharibənin qızğın çağlarında azərbaycanlılardan ibarət milli atıcı diviziyalar yarandı. Azərbaycanlılardan ibarət milli diviziyaların müharibədə göstərdikləri şücaətin sorağı dillərdə gəzdi. Taqanroqun azad edilməsindəki qəhrəmanlıqlara görə 416-cı diviziyaya «Taqanroq diviziyası» adı verildi. Həzi Aslanov, Qafur Məmmədov, Ziya Bünyadov, Cəray Əsədov, Mehdi Hüseynzadə və digərləri faşistlərə qarşı döyüşlərdə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Bakı neftçiləri müharibə dövründə ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişlər. Sovet ordusunun təyyarə və tankları demək olar ki, Bakı nefti ilə işləyirdi. Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunurdu. Qadınlar döyüşçülər üçün yundan corab, əlcək, köynək toxuyur, bəzək əşyalarını müharibə fonduna verirdilər. Kolxozçular ordunu ərzaqla təchiz edirdilər. Taxıl, ət, süd, yağ son damlasınadək cəbhənin ehtiyacılarına yönəlmişdi.

Qələbə gününədək müharibəyə yollanan 600 min azərbaycanlıdan 200 mindən çoxu qayıtmadı. Qafqaz dağlarından Berlinədək şanlı bir döyüş yolu keçmiş 100-dən çox azərbaycanlı ən yüksək hərbi ada—Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, minlərlə nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdu.

1941—1945-ci illərdə Azərbaycanın adını ucaldanların sırasında qəbələli döyüşçülərin də xidmətləri az olmamışdı. 6 minə yaxın Qəbələnin oğulları müharibəyə yollanmış, ən ağır döyüşlərdə fədakarlıq göstərmişdir. Onlardan 1169 nəfəri şikəst və qoltuq ağacı ilə hərbidən tərxis olunmuş, qalanları isə döyüşdə həlak olmuşdu. İndi onların sıraları seyrəlib. Hazırda rayonumuzda 25 nəfər Böyük Vətən müharibəsi veteranı öz həyatlarını davam etdirirlər. Onlar rayon icra hakimiyyətinin hərtərəfli qayğısı ilə əhatə olunur, sosial rifah halını yaxşılaşdırmaq məqsədilə şərait yaradılır, əlamətdar günlərdə onları təbrik edərək müvafiq hədiyyələrlə könüllərini sevindirir. Bu ənənə hər il faşist Almaniyasının üzərində Qələbə günü münasibətilə təkrarlanır. Əlbəttə, onların keçdiyi şərəfli döyüş və həyat yolu indiki gənclərə, ordu sıralarında xidmət edən Vətən oğullarına örnək olmalıdır. Əbəs yerə deyilməyib ki, oğullar qəhrəmanlığı babalarından, atalarından öyrənir.

**Aslan CƏLİLOV.**

***26 iyun—Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür***

# Milli Ordu–xalqın sarsılmaz gücü

Dünyada danılmaz bir həqiqət var: öz dövləti olmayan xalqlar gec-tez başqa xalqlar içərisində əriyib yox olur. Azərbaycan xalqı isə min illərdir yaşayır və dünya durduqca, yaşayacaq. Xalqımızın çox ağır, çətin günləri olub, nailiyyətləri-qələbələri də çoxdur. Ancaq bizim xalqımızın tarixində dövlət müstəqilliyini əldə etmək kimi mühüm bir arzu ürəklərdə yaşayıb. Hər bir azərbaycanlı üçün bundan böyük xoşbəxtlik ola bilməz. Çünki xalqın şərəf və ləyaqətinin birinci şərti onun müstəqilliyidir. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər də mürəkkəb və ağır işdir. Müstəqilliyi qoruyub saxlamaq üçün isə güclü ordu lazımdır.

Bu gün Azərbaycan Respublikasının çox güclü ordusu var. Azərbaycan ordusunun qurucusu xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Heydər Əliyev görkəmli dövlət xadimi, böyük siyasətçi, həm də peşəkar hərbiçi idi. Elə buna görə də ulu öndərin hakimiyyətə gəlişindən sonra əsası qoyulan ordu quruculuğu yüksək peşəkarlıqla həyata keçirilirdi. Respublikanın silahlı qüvvələrində əsaslı dəyişiklər edilməsi, müasir tələblərə uyğun ordu yaradılması sahəsində Heydər Əliyevin xidmətləri böyükdür. Məhz bunun nəticəsində 1993-cü ilin axırlarında və 1994-cü ilin əvvələrində Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlar keçirməyə nail olmuşdur.

Ulu öndərin 1998-ci il mayın 28-də imzaladığı fərmanla 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış ilk Azərbaycan ordusunun yarandığı gün—26 iyun Silahlı Qüvvələr Günü elan edildi. Bu gün artıq 15-ci ildir ki ölkəmizdə 26 iyun ümumxalq bayramı kimi qeyd olunur. Güclü, qüvvətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir. Ordunun yaranması, formalaşması bizim həyatımızda əsas mövzulardan biridir. Gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bu gün əsas vəzifələrdən biri olmalıdır. Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar. Milli adət-ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq—budur vətənpərvərlik.

1993-cü ildən sonra Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycan ordusunda xidmət edən qeyrətli vətən övladları xüsusi qəhrəmanlıq nümunələri göstəriblər. Sübut ediblər ki, Azərbaycan xalqının özünü, öz dövlətini qoruya biləcək əsgərləri, zabitləri, ordusu var. Biz inanırıq ki, milli ordumuz günü-gündən möhkəmlənəcək, güclənəcək, qüdrətlənəcək. Vətənimizin müstəqilliyini, ərazi bütövlüyünü müdafiə etməyə qadir olacaqlar. Azərbaycan Ordusunun hər bir əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursaolsun bərpa edilməlidir, işğal olunmuş torpaqlarımız azad edilməlidir. Bu, Azərbaycan dövlətinin üzərinə düşən əsas vəzifədir və bunun icraçıları Azərbaycanın ordusudur.

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olmayacağı surətdə torpaqlarımızı azad etmək üçün silaha sarılacağımızı gizlətmir və Azərbaycan Ordusunun buna tam qadir olduğunu bəyan edir: «Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir».

Biz fəxr edirik ki, dünyanın ən demokratik, ən qabaqcıl ölkələri sırasında olan Azərbaycan xalqının, millətinin keşiyində dura biləcək, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü qoruya biləcək, dinc əhalinin təhlükəsizliyi uğrunda vuruşa biləcək xilaskar ordusu var. Bu ordu xalqımızın inam və güvənc mənbəyi, müstəqilliyimizin təminatçısı, Azərbaycanı zəfər yrüşlərində şanlı qələbələrə aparacaq sarsılmaz qüvvəsidir.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin bir salonu bütünlüklə rayonumuzun rəhrəman övladlarına—Azərbaycan Milli Ordusunda qulluq edərkən şəhid olan həmyerlilərimizə həsr edilib. Burada həm də Böyük Vətən müharibəsi veteranları barəsində məlumat vardır. Muzeyin əməkdaşları gənc nəslin nümayəndələri olan məktəbli tamaşaçılara burada hərbi vətənpərvərlik ruhu aşılayır, onları Vətənə sədaqətlə qulluq etməyə səsləyirlər.

**Tahirə ŞƏFİYEVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşı.**